# Rəssamlıq sənəti
## və onun inkişafının tədqiqi tarixindən



**Tisian**
**"İmperatriça İzabella Portuqalskaya"**

**Belə nağıl edirlər ki, cavan bir qız döyüşə hazırlaşan sevgilisi ilə vidalaşarkən onun divara düşən kölgəsinə baxır və həmin kölgənin cizgilərini daşa cızır. Divarda oğlanın səthi təsviri alınır. Lakin yalnız xarici cizgilərdən ibarət bu cür səthi rəsm bu və ya digər predmetin həcmi və formasını ifadə etmir. Bunun üçün həmin xanım işıq və kölgədən istifadə edir. Rəvayətə görə rəssamlıq sənəti belə meydana gəlmişdir. İnsanlar rəsm çəkməyi yazı yazmaqdan qabaq öyrənmişlər.**

Rəssamlıq sənətinin olduqca qədim və maraqlı tarixi vardır. Tarixçi alimlərin bizə gəlib çatan məlumatlarına görə, ibtidai rəssamlıq nümunələri Paleolit dövründə, yəni eramızdan 40-20 min qabaqkı dövrdə - Daş dövründə meydana gəlmişdir. Minilliklər dövründə baş verən böyük inkişaf prosesi nəticəsində daş alətlər əvvəlcə tunc, sonra isə dəmir alətlərlə əvəz olunmuşdur.

Bəzi mənbələrdə də göstərilmişdir ki, müxtəlif mancələrlə və çətinliklərlə üzləşən ibtidai insanlar əvvəllər rəssamlığa "gərəksiz" bir əyləncə kimi baxırlarmış. Sonralar isə həmin sənətə həvəs göstərilməyə başlanılmışdır.

Ən qədim rəsmlər Fransa və İspaniya ərazisində mağaraların divarlarında cızılan, yaxud rənglə işlənən təsvirlərdən ibarət olmuşdur. İbtidai sənətdə heyvan təsvirlərinə xüsusi yer verilmişdir. Təbiətin amansız çətinlikləri qarşısında aciz qalan ibtidai insanlar, xüsusilə də ovçular ova çıxmazdan qabaq yerdə vəhşi heyvanların təsvirlərini cızır və həmin təsvirlərə səcdə edirlər. Bu da onların ən böyük etiqadları olub. Çünki, ibtidai insanlar təsvirlərin sehrkar qüvvəyə malik olduğunu təsəvvür edirdilər.

İbtidai icma quruluşundan sonra Quldarlıq quruluşu eramızdan təxminən beş min il qabaq bütün Şərq ölkələri kimi Qədim Misirdə də tüğyan etməyə başladı. Misir rəssamlığının ən gözəl nümunələri mövzu zənginliyinə görə insanları daim valeh etmişdir. Rəssamlıq tarixinin digər mənbələri eramızın IV-V əsrlərində qədim yunan incəsənəti ilə əlaqədardır.

Yunan rəssamlığında təsvirlərin təbliğinə və həyatiliyinə xüsusi əhəmiyyət verilmişdir. O, zaman rəssamlığın sehrkar aləm olduğunu göstərən bir çox rəvayətlər yazılmışdır. Həmin rəvayətlərdən birində oxuyuruq:
Eramızdan qabaq IV əsrdə yaşamış məşhur rəssam Anellesin çəkdiyi Makedoniyalı İsgəndərin atlı portretini görən atlar kişnəyirmişlər.
Bu da həmin rəsmlərin canlı təsvirlərindən xəbər verir.

Bəzi mənbələrin verdiyi məlumata görə eramızın I-II əsrlərində Romada portret rəssamlığı daha da geniş yayılmışdır. Həmin portretlərin nümunələri Moskva və Sankt-Peterburq muzeylərində saxlanılmışdır.

Antik dövründən fərqli olaraq Orta əsrlərdə incəsənət dinin təbliği sahəsinə yönəlmişdir. Avropa ölkələrində on əsrlik bir tarixi dövrü əhatə edən orta əsr mədəniyyəti dinin təbliği ilə məşğul olmuşdur. O dövrdə taxta üzərində müqəddəs rəsmlər-ikonalar təsvir olunurdu. Ümumiyyətlə isə, həmin dövrdə rəssamlığın bir neçə növləri inkişaf etmişdir. XIV-XVI əsrlərdə - İntibah (Renessans) mədəniyyəti meydana gəldi. İntibah mədəniyyətinin ilk vətəni İtaliya olmuşdur, sonra isə digər ölkələrə yayılmışdır. İntibah dövrü rəssamlığında hərtərəfli inkişaf etmiş, həm mənəvi, həm də cismani nöqteyi-nəzərdən gözəl və qəhrəman insan idealı tərənnüm olunurdu. Həmin dövrün rəssamları bir sıra köhnəlmiş ənənələri və mücərrəd sxemləri kənara ataraq insan surətləri, onları əhatə edən mühiti daha real və daha canlı təsvir edə bilmişlər.

XVI əsr İtaliya İntibahının qızıl dövrü sayılırdı. Bu dövrdə Leonardo da Vinçi, Mikkelancelo, Kafacello kimi məşhur rəssamlar yetişirdi ki, onların yaratdıqları məşhur rəsmlər sonrakı dövrlər üçün də ən dəyərli və qiymətli sənət əsərləri oldu.

XVI əsrin ikinci yarısından başlayaraq İtaliyada İntibah mədəniyyəti tədricən süquta uğradı. Bu hərəkatın təsviri Avropanın ictimai-siyasi şəraitinə uyğun yollarla inkişaf edirdi. Feodalizm cəmiyyətinin tədricən dağılması və kapitalist münasibətlərinin əmələ gəlməsi ilə əlaqədar olan İntibah mədəniyyəti Qərbi Avropa incəsənətinin gələcək inkişafına böyük təsir göstərmişdir.

XVII əsrdə Avropa ölkələrində milli dövlətlərin formalaşması prosesi gedirdi. Bu dövr üçün feodalizm ilə yeni meydana çıxan kapitalist münasibətləri arasında gedən mübarizə, ziddiyyətlər incəsənət əsərlərində də öz əksini tapmışdır. Həmin dövrün incəsənəti Barakko adlanan üsluba əsaslanırdı. Barakko üslubunun bəzi cəhətləri rəssamlıq əsərlərində də öz əksini tapmışdır. O dövrdə Barakko üslubu sarayların daxili tərtibində, divar rəsmlərində nəzərə çarpırdı. Barakko rəssamlığı üçün gərgin dinamika, gərginlik, sərbəst formalar, işıq-kölgənin üstünlüyünə əsaslanan təsvirlər aiddir.

Dünya incəsənəti tarixində XVII əsrin Flamid, Holland və İspan rəsmlərinin mövqeyi daha böyük olmuşdur.

XVII əsr Fransada mütləqiyyət quruluşunun çiçəklənmə dövrü idi. Bu zamankı rəssamlıqda klassizim cərəyanı meydana gəldi. Həmin cərəyana mənsub olan sənətkarlar həyat həqiqətlərini rənglərin dili ilə deyil, klassik ənənələrə istinad edirdilər. Yəni sənətin mövzu dairəsi əsatiri, dini və tarixi sujetlərlə bitirdi.

XVIII əsrdə burjuaziyanın kral hakimiyyətinə qarşı mübarizəsi güclənir, feodalizm üsul-idarəsinə zərbə vurulurdu. Feodal ideyası burjua ideyasına qarşı qoyulurdu. O zaman rəssamlıq kübar cəmiyyətinin bədii zövqlərini ifadə edirdi.

XIX əsrdə Avropa rəssamlığının inkişaf prosesi mürəkkəb və ziddiyyətli bir səciyyə daşıyırdı. XIX əsrdə Fransa rəssamlığında klassisizm cərəyanı inkişaf edirdi. Həyatı bəzəmək, ideallaşdırmaq prinsiplərinə əsaslanan klassisizm sənətinə qarşı yeni cərəyan - romantizm cərəyanı mübarizə aparırdı. Romantizm Fransada XIX əsrin birinci yarısında meydana gəldi. Rəssamlar həyatın cansıxıcı axınından yüksəyə qalxmağa, gərgin, dramatik hadisələri, fövqəladə vəziyyətləri fırçaya almağa çalışırdılar. Bunun üçün o dövrün rəssamları tarixi mövzulara, bədii ədəbiyyatların surətlərinə, habelə Şərq xalqlarının həyatına müraciət edirdilər.

XIX əsrin ortalarında Fransada və Avropanın başqa ölkələrində, xüsusilə də Rusiyada demokratik hərəkatın getdikcə güclənməsi nəticəsində realizm geniş miqyas alırdı. Bu dövrdə rəssamlıqda ictimai problemlər həlledici rol oynamağa başlamışdır. İmpression cərəyanı XIX əsrin sonlarında meydana gəlmişdir. Həmin dövrün rəsmləri hər hansı həyat səhnəsi haqqında özünün ani, fərdi təəssüratını əks etdirir.

İmpressionizm cərəyanı rəssamlığında həyatın ani anları tablolarda əks olunur. Bu o deməkdir ki, imperzesionist rəssam hadisələrin əsl mahiyyəti ilə maraqlanmır. Onun üçün təsvir etdiyi faktların tərbiyəvi əhəmiyyəti yoxdur.

O, sənəti təkcə "Bədii zövqün mənbəyi" hesab edir. Buna görə də rəssam hadisələrin mənasını deyil, yalnız xarici təəssürat verə bilər. Belə təəssüratlar formal axtarışlar üçün zəmin yaratmışdır.



XX əsrin əvvəllərində burjua incəsənətində formalizm təzahürləri getdikcə güclənirdi. Bu dövrdə mücərrəd sənət inkişaf edirdi. Mücərrəd sənət realizmə kökündən zidd olmaqla, siyasətdə xalqların milli istiqlaliyyətini, fəlsəfədə materialist dünyabaxışını və sənətdə həyat həqiqətlərini inkar edən imperializm irticasının yetişdirməsi və məfkurəvi silahıdır. Həmin dövrdə mücərrəd və formalist sənət ilə yanaşı, realizm cəbhəsinə mənsub olan sənətkarlar da fəaliyyət göstərmişdir. O dövrdə sülh və demokratiya cəbhəsinə mənsub olan görkəmli sənət xadimləri də vardır ki, onların yaratdıqları əsərlər müharibəyə qarşı aparılan mübarizənin simvolu olmuşdur.

Böyük Vətən müharibəsi illərində meydana çıxan ən yaxşı rəssamlıq əsərləri vətənə, xalqa məhəbbət, faşist işğalçılarına qarşı sonsuz nifrət hisslərinə həsr olunmuşdur. O dövrdə əmək mövzusu ən aktual bir mövzu idi. Keçmiş sovet rəssamlığının bir çox əsərlərində xalqın yeni məişəti, əmək cəbhəsində formalaşan gözəl əxlaqi keyfiyyətləri, yeni tipli insan münasibətləri göstərilirdi.

XXI əsr isə dünya rəssamlığında ən yüksək zirvə oldu. Dünyanın ən tanınmış rəssamları öz məşhur əsərləri ilə dünyanın hər yerində sevildilər, tanındılar və şöhrət qazandılar.

* * *

Azərbaycan ərazisində ən qədim mədəniyyət nümunələri Mezolit dövrünün əvvəllərinə təsadüf edir. Azərbaycanda təsviri sənətin ən qədim nümunələri eramızdan əvvəl XII-VI minilliyə aid Qobustan qaya rəsmləri, Kəlbəcər rayonunun Zalxa gölü ətrafında - eramızdan əvvəl III minillikdə Tunc dövrünün əvvəllərinə aid rəsmlər, Ordubad rayonunun şimalında eramızdan əvvəl III-I minilliyə aid Gəncəqaya dağındakı təsvirlər Azərbaycanda rəssamlıq sənətinin ilk nümunələrindən xəbər verir. Azərbaycanda rəssamlığın qədim nümunələri Daş və Metal məmulatlarını bəzəyən rəsmlər olmuşdur. Böyükdaş, Kiçikdaş və Çingizdağ zonalarında qaya və ayrı-ayrı daşlar üzərində həkk olunmuş rəsmlər orta əsrlərin sonunadək olan bir dövrü əhatə edir. Bu dövrdəki rəsmlər qədim insanların həm təsərrüfat fəaliyyətlərini, həm də mənəvi aləmlərini əks etdirir. Bəzi rəsmlər qədim insanların pərəstişlərini ifadə edir. Həmin rəsmlərin bəziləri isə öz təbii böyüklüyü ilə qayalara həkk olunmuşdur.

Orta əsrlərdə Azərbaycanda təsviri sənətlə yanaşı dekarativ - tətbiqi sənəti də inkişaf etmişdir. Gəncədə, Beyləqanda və digər şəhərlərdən tapılmış keramika nümunələri üzərində olan rəsmlər tədqiqatçılara bu barədə daha geniş məlumat toplamağa imkan vermişdir.

Monqol dövründə, yəni XIII əsrdən tutmuş XIX əsrin axırlarınadək Uzaq Şərq rəssamlıq sənəti keramikada və metal məmulatlarında əks etdirilirdi.

Hələ XIV əsrin əvvəllərində Qazan xanın vəziri Rəşidəddinin əsərinə çəkilmiş minatürlərə və ya XV əsrdə yaşamış bakılı rəssam Əbdülbaqinin rəsmlərində fantastik quş və heyvan rəsmləri daha çox üstünlük təşkil edirdi.

Qeyd etmək lazımdır ki, tovuz quşu rəsmləri keçmişdə Azərbaycanda çox geniş yayılmışdır. O dövrdə tovuz quşunun təsviri metal və keramika üzərində də təsvir olunurdu.

Rəvayətə görə, tovuz quşu hələ uzaq keçmişlərdə qədim Türk tayfaları arasında Günəş və Od Tanrısı kimi İlahi və rəmzi bir məna daşıyırmış. Tədqiqatlar göstərmişdir ki, əsrlər keçdikcə tovuz quşu rəsmləri öz keçmiş mənasını itirmiş və sadələşərək, Şərq aləmində geniş yayılaraq "Buta" ornamentinə çevrilmişdir.

Azərbaycan xalqının bədii irsində miniatür rəssamlığının əhəmiyyəti böyükdür. XIV-XVI əsr Təbriz miniatür məktəbinin ənənələri təkcə Azərbaycanda deyil, bütün dünya miqyasında şöhrət qazanmışdır. Miniatür ustaları həyatı həssaslıqla qoruyur, görüb-duyduqlarını təsvir edirlər. Miniatürdə insan və təbiət təsvirləri ilə, onlara məzmun verən poetik əsərlər, ölkənin təbiəti və milli estetik anlayışları arasında qırılmaz vəhdət vardır.

XVIII-XIX əsrlərdə Azərbaycanda divar rəsmləri daha mütəşəkkil inkişaf edirdi ki, bu rəsmlərin ən yaxşı nümunələri Naxıçvandakı Xan Sarayını bəzəyirdi. Həmin əsrlərdə divar rəsmlərinin əsas mövzusu Azərbaycan təbiətindən götürülmüşdür.

XIX əsrin axırlarına kimi Azərbaycan rəssamlığında dekorativlik ünsürləri geniş yayılmışdır. Lakin dekorativ səpkidə işlənən rəsmləri çəkən rəssamlar çəkdikləri rəsmlərin tam uyğun əksini verməkdə aciz olmuşlar. Bu sahədə dəzgah rəssamlığının imkanları və təsvir vasitələri daha geniş idi. Buna görə də XX əsrin əvvəllərində dəzgah rəs-

samlığı meydana gəldi.

Dəzgah rəssamlığı milli irsə və ənənələrə əsaslanırdı. Dəzgah rəssamlığı Azərbaycan rəsm sənətinin novatorluk yoluna düşməsini göstərən mühüm amil hesab olunur.

XX əsrdə Azərbaycan rəssamlığı daha geniş istiqamət alaraq böyük inkişaf yoluna qədəm qoymağa başladı. Respublikamızda milli rəssamlığın meydana çıxması, rəssamlığımızın müvəffəqiyyətlə inkişafı XX əsrdə meydana gəldi. XX əsr Azərbaycan rəssamlığının ilk inkişafı Əzim Əzimzadənin adı ilə bağlıdır. Sonralar Əzim Əzimzadənin zəngin yaradıcılıq fəaliyyəti dəzgah rəssamlığı sahəsində çalışan gənc rəssamların yetişməsində böyük rol oynamışdır.

1920-ci ildə Azərbaycan Gənc Rəssamlar Cəmiyyəti yaradıldı. O dövrdə Azərbaycan rəssamlarının əsərlərində dekorativ mövzular daha çox inkişaf etmişdir.

30-cu illərin axırlarında Azərbaycanda təsviri incəsənətin bütün sahələrində qəti dönüş başlamışdır.

1939-cu ildə Bakı və Azərbaycan Bolşevik Təşkilatları Tarixi Muzeyinin yaradılması və 1940-cı ildə Azərbaycanın 20 illiyi münasibəti ilə bədii sərginin təşkil edilməsi rəssamlıq sənətində tarixi-intibahi mövzularda tematik əsərlərin və portretlərin meydana gəlməsi üçün geniş imkanlar açdı.

Vətən müharibəsi ərəfəsində Azərbaycan rəssamlıq sənətində realist sənət prinsiplərinə əsaslanan bir sıra tablolar yaradılmışdır.

Böyük Vətən Müharibəsi illərində isə Azərbaycan rəssamları öz yaradıcılıqlarını yalnız müharibə, qəhrəmanlıq və düşmən üzərində qələbə mövzusuna həsr etmişlər. Keçmiş sovet xalqlarının vətən müharibəsində qazandıqları tarixi qələbə təsviri sənətin əsas növləri və janrlarında yeni yüksəliş dövrü açdı. Müharibə illərində Bakıda işləmiş sənətkarlar ordudan tərxis olunaraq doğma yurda qayıtmış rəssamlar və sənət aləminə gəlmiş istedadlı gənclər idilər ki, onlar da dövrün tələblərinə cavab verən tematik əsərlər - portretlər və mənzərələr çəkirdilər.

Böyük Vətən Müharibəsi illərindən sonrakı quruculuq illərində Azərbaycan təsviri sənətinin bütün növləri və janrlarında müasirlik ruhu xüsusilə qüvvətli olmuşdur. Mingəçevirdə, Daşkəsəndə, Sumqayıtda, Neft daşlarında görülən əzəmətli işlər, kənd təsərrüfatı qabaqcıllarının əmək meydanlarında göstərdikləri xarüqələr Azərbaycan rəssamlarının yaradıcılığının əsas mövzusu oldu. Azərbaycan rəssamları mütəmadi olaraq dövrümüzün ən mühüm problemlərini əks etdirən rəsm əsərləri yaratdılar.

Ümumiyyətlə isə XXI əsrdə Azərbaycan rəssamlığı uğurlu bir inkişaf yoluna qədəm qoyaraq, yüksək zirvələr fəth etmişdir. Bu yüksəliş yolunda uğurla davam etməkdədirlər.

Respublikamızın zəngin həyatının elə mühüm sahəsi yoxdur ki, rəssamlarımız tərəfindən fırçaya alınmasın. Bu gün Azərbaycan rəssamları öz yaradıcılıqlarını doğma xalqın həyatı ilə daha sıx əlaqələndirirlər. İndi Azərbaycan rəssamlarının fırçaya aldıqları əsərlər dünya sərgilərində nümayiş etdirilir, tanınır, böyük sevgi və maraqla qarşılanır. Nəinki tanınmış rəssamlarımız üçün, hətta rəssamlığa yenicə başlamış gənclərimiz üçün də respublikamızda hər cür şərait yaradılıb və yaradılmaqdadır.

Bu gün rəssamlıq sənətinin bütün janrlarında işləyən dünya şöhrətli azərbaycanlı sənətkarlar Azərbaycanı şərəflə təmsil etməkdədirlər.

İncəsənətin bir qolu olan rəssamlığın inkişafı dünya mədəniyyətinə, eləcə də maddi və mənəvi dəyərlərə ən böyük töhfədir. Ən qədim zamanlardan tariximizin bu gününə qədər çatan sənət abidələrinin qorunub saxlanması, gələcək nəsillərə çatdırılması bütün dünya insanlarının şərəfli borcudur.

● **Məryəm ƏLİYEVA,**
***Kürdəmir Rayon MKS-in metodika-biblioqrafiya şöbəsinin baş kitabxanaçısı***

## Ədəbiyyat

1. Azərbaycan Milli Ensklopediyası. Azərbaycan. - 2007.
2. Həbibov N. Rəssamlıqdan söhbət. Bakı, 1961.
3. Nəcəfov M. Rəssam və zaman. Gənclik, 1977.
4. Hacıyev R. Zamanın boyaları. Bakı, 1979.
5. Səttar dünyası. İşıq. 1990.
6. Nəcəfov M. Altay Hacıyev. Bakı. 1974.
7. Mehdiyev A. Rəngkarlıq. Bakı. 1990.
8. İncəsənət. Almanax. Azərnəşr. 1957.
9. Əfəndiyev A. Azərbaycan el sənəti. Bakı. 1974.